# "Sözümün vətən qoxusu"

## Fazil Atəşin bu yaxınlarda şeirlər kitabı işıq üzü görüb



İLTİMAS SƏMİMİ

**Çağdaş poeziyamızda tanıdığım imzalardan biri də Fazil Atəşdir. Ən çox vətənpərvər şeirlərilə diqqətimi özünə cəlb edən şair, yaddaşıma poetik misralarıyla həkk olunub. Fazil Atəş poeziyaya gənc yaşlarından böyük həvəs göstərib, mütəmadi olaraq ədəbi -bədii yaradıcılıqla məşğuldur.**

Şeirləri "Yurd" jurnalarda, qəzetlərdə və almanaxlarda çap olunub. Bir neçə kitabın müəllifidir.

Fazil Atəşin bu yaxınlarda "Sözümün vətən qoxusu" şeirlər kitabı işıq üzü görüb. Bu kitabda müəllifin son dövrdə qələmə aldığı şeirlər, qəzəllər və bir poema yer alıb.

Kitabda yer alan birinci poetik nümunə "Qarabağım" şeiridir. Bu şeirdə bir -birindən dəyərli misralar kərpiç -kərpiç hörülmüş divarə bənzəyir.

**Könül bağım,**
**Tarix bağım,**
**İlk sorağım,**
**Qarabağım.**

**Və yaxud; İndi səni gözləyən var,**
**Bülbüləri səsləyən var.**
**Səndən ötrü ağlayan var,**
**Solum, sağım,**
**Qarabağım.**
**İllər ilə necə dözdüm,**
**Həsrətinə şeir yazdım,**
**Həm yaxınım, həm uzağım,**
**Uşaqlığım, həm oylağım,**
**Qarabağım!!!**

Şair öz dolğun misralarıyla elə bil oxucunu yaxın da keçmişə aparır. 44 günlük müharibədən əvvəl, ürəyimizi köz -köz yandıran yurd nisgili, Qarabağ həsrəti xatırlanır. Əlbəttə, artıq keçmişdə qalan 30 illik Qarabağ həsrəti, Xocalı ağrısı, yurd nisgili və şəhid anaların acı göz yaşları yaddaşlardan silinməz.

Fazil Atəş bir vətəndaş şairi olaraq, təbii ki, bu mövzulardan, xalqımızın icdimai və siyasi həyatında baş vermiş hadislərdən kənarda qala bilməz. O, qələmə aldığı yeni şeirdə öz poetik fikirləri ilə vətənə, torpağa olan borcunu yerinə yetirir.

Müəllifin "Xəritəm" adlı şeiri oxuduqda bir anlıq gözümün önünə klassik Azərbaycan xəritəsi gəlir. Dərbənddən Həmadanacan yurd yeri, əsrlər boyu soydaşlarımızın yaşadığı vətən, ulu əcdadlarımızın uyuduğu məkan.

**Azərbaycan başdan -başa mənimdir,**
**Çox cızıldı, çox dəyişdi xəritəm.**
**Xan Arazım bölüb məni ikiyə,**
**Rezin kimi bir qayışdır xəritəm.**

**Sonu birdir bir olacaq torpağım,**
**Bir ağacda yetişəcək yarpağım,**
**Buna misal Qarabağım can bağım,**
**Bitişəcək böyük işdi xəritəm.**

**Bir tərəfim Zəngəzurdur, Vedidi,**
**Bir tərəfdən Dərbənd qala yeridi,**
**Bir tərəfdən Urmiyanın gölüdü,**
**İnsanların göz yaşıdı xəritəm.**

Fazil Atəşin bir şair kimi poetik təfəkkürü, düşüncəsi tarixin yaddaşıdır. Ümumiyyətlə, mənim fikrimcə vətənpərvərik mövzusunda ən çox şeir yazan şairlərin içində bir nisgil, sağalmayan ağrı var. Harayı, hayqırtısı bir -birinə oxşar olur. Məhəmmədhüseyn Şəhriyar harayı, Məmməd Araz ağrısı, Bəxtiyar Vahabzadə kədəri, Xəlil Rza Ulutürkün hayqırtısı buna ən böyük nümünədir.

Fazil Atəşin şeirlərin oxuduqca Azərbaycan tarixində baş verən ağrılı, acılı hadislər xəyalımdan keçir.

Şairin bu kitabda şəhidlərimizə həsr etdiyi bir neçə şeiri var. Təbii ki, bir -birindən dəyərli bədii fikirlərlə gözəldir. " Bitər" şeiri xüsusilə fərqlidir.

**Şəhid qanı düşsə yerə,**
**Toxumundən vətən bitər.**
**Ziyarətim and yerimdir,**
**Şəhid adlı güldən bitər.**

**Şəhidlərim ölmədiniz,**
**Çiçək kimi solmadınız.**
**Bu xoş günü görmədiniz,**
**Yuxunuzda cənnət bitər.**

**Yetişcək nəsil -nəsil,**
**Yadımdasız fəsil -fəsil.**
**Tarix yazan sizsiz əsil,**
**Tarix yazar zillət bitər.**

Fazil Atəşin ana haqqında yazdığı şeirləri, əlbəttə, çox mənalı və düşündürücüdür.

Bu şeirlərdən söz açmamaq və üstündən keçmək mümkün deyil. Hər bir insanın bir ana dünyası var. Öz anasına və bütün analara olan sevgisi, ehtiramı səmimidir. Elə bir şair olmaz ki, ana haqqında şeiri olmasın.Təbii ki, hər ürəkdə özünəməxsus hiss, duyğu var.

**Elə gözəl bir neymət de,**
**Şirin ola ana kimi,**
**Sevgi kimi dərya göstər,**
**Dərin ola ana kimi.**

**O cənnətdir müqəddəsdir,**
**Övlad üçün o nəfəsdir,**
**Həm ayətdir, həm hədisdir,**
**Ana varmı ana kimi?**

**Digər şeirdə;**
**Ana səni çox gözlədim,**
**Dolanmadın mənə tərəf.**
**Sən gəlmədin özüm gəldim,**
**Soyuq məzarına tərəf.**

Əlbəttə, diqqətimi özünə cəlb edən, həsas olduğum bu müqəddəs mövzu xəyalımda köz -köz közərir. Qələm adamları nə qədər ana haqqında romanlar belə yazsalarda yenə azdır. Axı uca Yaradanın yaratdığı cənnət anaların ayağın altındadır. Buda əzəli və əbədi olan Allahın anaya ən böyük mükafatı. "Qurani -Kərim" də və oxuduğumuz digər kitablarda da ananın məqamı çox yüksəkdir.

Şair Fazil Atəşin qəzəlləri də çox müasir və özünəməxsusdur. Qəzəlində işlətdiyi poetik fikirlər və təmiz ana dilimizdə olan bu qəzəllərdə heç bir dilmizə yatmayan yad kəlmələr, alınma sözlər yoxdur. Bu da şairin istedadından və yeniliyə meyilli olmağından irəli gəlir.Təbii ki, hər sahədə inkişaf getdikcə, ədəbiyyatda da istər ərzuz, istər heca, istərsə də sərbəst şeirdə yeniliklər, yeni düşüncə, yeni



fikir və yeni təfəkkür mütləqdir.

Müəllifin qələmə aldığı digər şeirləri də düşündürücüdür. Bir də bu kitabda yer alan "Övlad" poeması maraqlıdır. Ənənəvi üslubdə yazılan bu poema çox hikmətlidir.

Poemada atanın, ananın illərcə övlad həsrəti çəkməsi, sonra bir oğlan uşağı dünyaya gəlməsi, o uşağı ərküyün böyütməsi, valeydinlərin övladlarını düzgün tərbiyələndirməsindən söz açır.

Böyük filosof Nəsrəddin Tüsinin qələmə aldığı məşhur "Əxlaqi -Nasiri" əsərində valydeynlər övladlarını necə tərbiyə etməsindən çox gözəl söz açıb. Övladı nə çox ərküyün nə də çox sıxrmaq olmaz. Xüsusilə, valeydinlər həddi buluğa çatmış övladlarla çox ehtiyala davramalı və kənardan nəzrət etməlidilər. Üstünə çox getsələr uşağı özündən çıxarmaqla nətincələnər. Bunun da günahkarı yenə valideynlərdir. Əlbəttə, hər bir uşaq dostları kimi qayğısız, rahat hərəkət etmək istəyir. Valideyiyin övladının bu ehtiyaclarını hamsını ödəməlidir.

Şair Fazil Atəş həm də Birinci Qarabağ müharibəsinin iştirakçısıdır. Tanıdığım Fazil Atəş həm şair, həm də bir şəxsiyyət kimi dəyərlidir.

Dəyərli ziyalı, səmimi şair Fazil müəllimin "Sözümün vətən qoxusu" şeirlər kitabının oxucular tərəfindən daima həvəslə qarşılanacağına əminəm.

Gözəl şairimizə can sağlığı və yaradıcılıq uğurları arzulayıram.